# AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ ÜMUMİLƏŞDİRİCİ DƏRSLƏRİN XARAKTERİNƏ DAİR

**Aynur Şelemanova**
*Bakı Slavyan Universiteti*
*https://ORCID.org/0009-0008-5418-9036*
*aynurselemenova@gmail.com*

**Xülasə**

Azərbaycan dili didaktikasında dərslərin növləri və tipologiyası müxtəlif baxışlar, yanaşmalar üzrə qurulan bölgü prinsipləri ilə müəyyən edilir. Ən universal bölgü klassik bölgüdür ki, orada yeni bilik verən, möhkəmləndirmə, qarışıq tipli, təkrar və ümumiləşdirici təkrarlardır. Bunların da hər birindən qarışıq tipli dərslərdə istifadə olunur. Lakin verilən biliyin təkrarı, ümumiləşdirilib sistemə salınması, daha müasir və kütləvi bölgünün nəticəsi sayılır.

Belə dərslərin didaktik əsasları haqqında kurikulumun metodoloji nəzəriyyəsində məlumat verilsə də, hər şey gün kimi aydın təsəvvür olunmur. Metodistləri çətinliyə salan da budur. Onlar belə hallarda müəllimlərə istinad verməkdə çətinlik çəkirlər. Məqalədə ümumiləşdirici dərslərin yeni sisteminin şərhi məsələlərindən bəhs olunur. Ümumiləşdirici təkrarlar üzrə yeni sistemin mahiyyətinə nəzər salınır, kurikulum metodologiyası şərh olunur.

**Açar sözlər:** ümumiləşdirmə, ümumiləşdirici dərs, ümumiləşdirici təkrar, yeni sistem, problemin mahiyyəti, Azərbaycan dili didaktikası.

# ABOUT THE NEW SYSTEM OF GENERALIZING LESSONS ON THE "AZERBAIJANI LANGUAGE" SUBJECT

**Aynur Shelemanova**
*Baku Slavic University*

**Abstract**

The types and typology of lessons in the didactics of the Azerbaijani language are determined by the principles of division based on different views and approaches. The most universal division is the classical division, in which there are repetitions that provide new knowledge, reinforcement, mixed type, repetition and generalization. Each of these is used in mixed type lessons.

However, the repetition, generalization and systematization of the given knowledge is considered the result of a more modern and mass distribution.

Although information about the didactic basis of such classes is given in the methodological theory of the curriculum, everything is not clearly presented. That's what gets methodists in trouble. In such cases, it is difficult for them to guide teachers. The article discusses issues of interpretation of the new system for summarizing lessons. The essence of the new system for summing up repetitions is considered, and the methodology of the curriculum is explained.

**Key words:** generalization, generalizing lesson, generalizing repetition, new system, essence of the problem, didactics of Azerbaijani language.

## О НОВОЙ СИСТЕМЕ ОБОБЩАЮЩИХ УРОКОВ ПО ПРЕДМЕТУ АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

**Айнур Шелеманова**

*Бакинский славянский университет*

**Резюме**

Виды и типология уроков по дидактике азербайджанского языка определяются принципами разделения, основанными на различных взглядах и подходах. Наиболее универсальным является деление классическое, в котором присутствуют повторы, дающие новые знания, закрепление, смешанный тип, повторение и обобщение. Каждый из них используется на уроках смешанного типа. Однако повторение, обобщение и систематизация данных знаний считается результатом более современного и массового распространения.

Хотя сведения о дидактической основе таких занятий приведены в методической теории учебной программы, все четко не представлено. Вот что доставляет методистам неприятности. В таких случаях им трудно направить учителей. В статье рассматриваются вопросы интерпретации новой системы подведения итогов уроков. Рассмотрена суть новой системы подведения итогов повторений, объяснена методика учебной программы.

**Ключевые слова:** обобщение, обобщающий урок, обобщающее повторение, новая система, суть проблемы, дидактика азербайджанского языка.

**Giriş / Introduction**

Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramında (kurikulumda) dil qaydaları məzmun xəttinin tələbləri belə verilmişdir: şagirdlərə dilin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı ən zəruri biliklər yığcam, sadə, aydın qayda və şərhlər formasında çatdırılmalı, orfoqrafiya qaydalarına riayət edilməli, durğu işarələrindən yerli-yerində düzgün istifadə olunması təmin edilməlidir. Bütün bunlar şagirdlərin həm oxu, həm də yazı qabiliyyətlərinin inkişafı üçün zəmin yaradır. Şagirdlərin şifahi və yazılı nitq bacarıqlarının formalaşmasında mühüm rol oynayan zəruri linqvistik biliklərin öyrənilməsi, mədəni nitq üçün vacib sayılan mühüm tələblərin qavranılması, ədəbi dilin funksional və fərdi üslublarının səciyyəvi xüsusiyyətlərinin dərk olunaraq fərqləndirilməsi və təcrübədə tətbiqi təmin edilir [İbadova, 2013:12]. Təbii ki, bu qeyd olunanların bacarıq və vərdişlərə çevrilməsi üçün təkrar və ümumiləşdirici dərslərin əhəmiyyəti böyükdür.

**Təlim prosesində ümumiləşdirici dərslərin yeri.**

Ümumtəhsil məktəblərinin V sinfində Azərbaycan dilindən sait və samitlərin növləri, heca, intonasiya, vurğu və s. mövzularla bağlı dərslər dil qaydaları kimi öyrənilir [İsmayılov, 2020:12-45]. Həmin məsələlər əvvəlcə cari təkrar və sonra ümumiləşdirici təkrarla yekunlaşdırılır. Ümumiləşdirmə fəlsəfi metoddur. Ümumiləşdirici dərs pedaqoji termindir. Mənası da aşağıdakı kimi anlaşılır: Belə təlimdə özünə qədərki dərslərdə öyrənilən biliklər müvafiq anlayışlara çevrilir, müvafiq anlayışlarla ifadə olunur və yeni bir keyfiyyət, yaxud da mahiyyət qazanır.

Eyni zamanda fonetik təhlil yolu ilə bu məsələlərlə bağlı öyrənilənlər ümumiləşdirici təhlil bacarıqlarının aşılanması kimi yeni anlayışlara çevrilir. Fonetik təhlil sözdəki saitlərin qalın və incə, dodaqlanan və dodaqlanmayan, qapalı və açıq; habelə samitlərin-kar və cingiltili, səslərin və hərflərin adlandırılması, sözlərdə onların sayı birinin o birindən az və ya çox olması və s. deməkdir. Fikrimizi əsaslandırmaq üçün bir neçə nümunəyə nəzərə salaq:

| Yazılır: | Deyilir: |
|---|---|
| saat | sā :t |
| 1. 4 hərfdən : | 3 səsdən ibarətdir: |
| s, a, a, t | s, a, t; |
| 2. saitlər: a,a | samitlər: s, t |
| 3. 1 sait, 2 dodaqlanmayan samit<br>2 kar samit | 2 heca, vurğu son hecaya düşür . |

Göründüyü kimi, bu cür təhlil əməliyyatı səs, hərf, sait, samit, onların xarakteri, yazıda və tələffüzdə sayı, saitlərin heca əmələ gətirməkdə rolu, saitlərin vurğusuna dair öyrənilənlərin bir ümumi adda, yəni fonetik təhlil anlayışında ümumiləşməsi deməkdir.

Eyni zamanda fonetik təhlil, leksik təhlil, söz yaradıcılığına görə təhlil, sözün tərkibinə görə təhlil, habelə morfoloji təhlil, sintaktik təhlil anlayışları ümumiləşmiş anlayışlar olsalar da, onların da hamısı bir ümumi anlayışda ümumiləşir ki, o da linqvistik təhlil anlayışıdır.

Deməli, ümumiləşdirici təkrar hər bir məzmun xəttinə aid olmalıdır.

Tədqiqatla müəyyən edilmişdir ki, dərsliklərdə bu məsələnin qoyuluşu ona görə ümumiləşdirici təkrar, ümumiləşdirici dərs, ümumiləşdirmə və ya qiymətləndirmə adlanır ki, kurikulumla bağlı izahatverici resusrlarda aydın şərhlər verilməmişdir [İsmayılov, 2020:165-166]. Halbuki ənənəvi didaktikada ümumiləşdirici dərs termini biliyin təkrarı, ümumiləşdirilməsi və sistemə salınması kimi verilərdi.

Əlbəttə, bu özü də bizə görə, əməl edilməsi etalon ola biləcək son anlayış deyil: Onun da əsasında düzəlişlərə, əlavələrə və ya təkmilləşmələrə ehtiyac var.

Belə ki, bunlar bizə görə aşağıdakılardır:

1) ümumiləşdirici dərslər məqsəddən asılı olmalıdır;

2) sistem daxili və sistemlə qurulmalıdır;

3) əhatəedici xarakteri ilə seçilməlidir;

4) yekunlaşdırıcı mahiyyət daşımalıdır və s.

VI sinifdə belə dərsləri hər bir nitq hissəsinin tədrisindən sonra keçirmək kimi nəzərdə tutulur. Halbuki onun alt sistemləri də nəzərə alınmalıdır. Məsələn: isimlərin quruluşca növləri, isimlərin mənaca növləri bir yarımsistemdirsə, onun kateqoriyalarına dair də belə sistemi yaratmaq didaktik cəhətdən əhəmiyyətsiz görünməz. Həmçinin də elə mövzular var ki, onların özü də ümumiləşdirici sistem yaradıcı yanaşma tələb edir. “Təsriflənən feillərin cümlədə rolu”, “Təsriflənməyən feillərin cümlədə rolu” ilə “Feillərin cümlədə rolu” mövzusu da xüsusi və ümumi xarakterdə qurulan ümumiləşdirici dərslər ola bilər [İsmayılov, 2021:115-133].

“Ümumiləşdirici təkrar dərsləri” və ya “ümumiləşdirici dərs” terminindən V-VII siniflərdə dərslik tərtibçiləri tərəfindən istifadə edilmişdir. Lakin təkrar, ümumiləşdirmələrin hamısı dil qaydalarına aiddir. Dinləyib-

anlama, oxu, yazı məzmun xətləri ilə işləyən məktəb sistemində belə olmamalıdır.

**Məzmun xətləri və ümumləşdirici dərslər.**

Ümumiləşdirmə təkcə biliklərlə və yaxud da şifahi deyilənlərlə məhdudlaşmır. Əgər ümumiləşmə bacarıq və vərdişlərə aiddirsə, bu isə həqiqətən belədir və heç bir şübhə yeri də qalmamalıdır ki, inkişaf kiçik anlayışların və ya bacarıqların daha böyük anlayışlara və ya bacarıqlara çevrilməsi yolu ilə baş verirsə, yazı məzmun xəttində imla, ifadə, inşa, esse, hekayə qurmaq bacarıqları biliyin bacarığa, bacarığın vərdişə və ya səriştəyə çevrilməsidir. .

Buradan da aydın olur ki, inşa dərsləri Azərbaycan dilindən ən ümumiləşmiş dərs sayılır. İnşanın daxil olduğu yazı məzmun xətti də ümumiləşdirici məzmun xəttidir. Dərsliklərimizin əsas mətnlər əsasında qurulması və dərsdə bütün fonetik, leksik, qrammatik-üslubi əməliyyatların onların üzərində aparılması ilə yanaşı, anoloji mətn qurulması ilə təlimin tamama yetməsi inşaya son nəticə kimi baxmaq lazımdır. Həmkarlarımıza bir təkliflə də müraciət etmək istəyirəm:

Gəlin ümumiləşdirici təkrarlar üzrə yeni sistemin mahiyyətinə dair kurikulum metodologiyasını birlikdə öyrənək:

1) Ümumiləşdirmə fəlsəfi və pedaqoji anlamda;
2) Azərbaycan dilindən linqvistik qaydalara dair ümumiləşdirici təkrar dərslər;
3) Dinləyib-anlama və danışmağa dair ümumiləşdirici təkrar dərslər;
4) Oxu məzmun xəttinə dair ümumiləşdirici təkrarlar;
5) Yazı məzmun xəttinə dair ümumiləşdirici təkrar dərslər;
6) Ümumiləşdirici təkrar dərslərə dair çalışmalar sistemi;
7) Ümumiləşdirici təkrar dərslərin yeni sisteminin ənənəvidən fərqli özəllikləri;
8) Ümumiləşdirici təkrar dərslərdən gözlənilən və son nəticələr;
9) Ümumiləşdirici təkrar dərslər və qiymətləndirmə;
10) Ümumiləşdirici təkrar dərslərə aid elmi-metodik müddəalar.

**Nəticə /Conslusion**

Nəticə olaraq deyə bilərik ki, ümumiləşdirmə təkcə biliklərlə və yaxud da şifahi deyilənlərlə məhdudlaşmır. Əgər ümumiləşmə bacarıq və vərdişlərə aiddirsə, bu isə həqiqətən belədir və heç bir şübhə yeri də qalmamalıdır ki, inkişaf kiçik anlayışların və ya bacarıqların daha böyük anlayışlara və ya

bacarıqlara çevrilməsi yolu ilə baş verirsə, yazı məzmun xəttində imla, ifadə, inşa, esse, hekayə qurmaq bacarıqları biliyin bacarığa, bacarığın vərdişə və ya səriştəyə çevrilməsidir.

**Ədəbiyyat / References**


1. Azərbaycan Respublikası Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulum) ( V-XI siniflər). (2013) – Bakı: – 135 s.
2. Azərbaycan dili (2020). 5-ci sinif üçün dərslik. – Bakı: Altun kitab. – 202 s.
3. Azərbaycan dili (2020). 5-ci sinif müəllim üçün metodik vəsait. − Bakı: Altun kitab. – 202 s.
4. Azərbaycan dili (2021). 6-ci sinif üçün dərslik. − Bakı: Altun kitab. – 192 s.
5. Azərbaycan dili (2021). 6-ci sinif müəllim üçün metodik vəsait. − Bakı: Altun kitab. − 192 s.
6. Arıxova, V. (2014). Şagirdlərin yazılı nitqinin inkişafında orfoqrafiya təliminin rolu. // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. − Baki: BDU. − № 1(89). − s.273-275.
7. Bəşirov, K., Mehralıyeva B. (2008). Orta məktəbdə Azərbaycan dilinin morfologiyasının tədrisi məsələləri. − Bakı: Nurlan. – 328 s.
8. Cəfərova, N. (2016). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. − Bakı: ADPU. – 404 s.
9. Əfəndizadə, Ə. Düzgün yazı təliminin elmi əsasları. (1975) – Bakı: Maarif. – 176 s.
10. Qurbanov, V.T.(2023). Dil təliminin aktual problemləri. − Bakı: – “Müəllim”. –264 s.
11. Ümumi təhsilin fənn standartları (I-XI siniflər) (2012). − Bakı: – “Mütərcim”. − 402 s.



**Məqalə tarixçəsi**

*Daxil olub* 16.02.2024

*Düzəlişə göndərilib* 17.02.2024

*Qəbul edilib* 28.02.2024

*Nəşrə tövsiyə edib* *Könül Səmədova*

*filologiya elmləri doktoru, dosent*